# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## İdarəçilik, yoxsa liderlik?

**Mirvari Ələkbər qızı Akkoç**
*Bakı Qızlar Universiteti*
**E-mail:** akkocmirvari@gmail.com

**Rəyçilər:** prof. Dr. U. Yavuz,
prof. Dr. O. Demirdöğen

**Açar sözlər:** idarəçilik, liderlik, hədəf, məsuliyyət, ünsiyyət, qərarlılıq
**Ключевые слова:** управление, руководство, цель, ответственность, общение, стабильность.
**Key words:** management, leadership, goal, responsibility, communication, stability.

Hər bir qurumun məqsədlərini reallaşdırması, hədəflərinə çatması, inkişaf və dəyişimi yaxından izləməsi üçün təsirli bir idarəetmə mexanizminin yaradılması labüddur. İdarəetmə sisteminin sağlam işləməsi üçün qanun-qayda və rəhbər birinci dərəcəli hesab olunsa da, əsl vacib olan element şübhəsiz təsirli bir idarəçi, yəni Lider bir insandır. Sadəcə məhsuldarlığı və mövcud vəziyyəti qorumağı təməl alan klassik idarəçi anlayışı ilə dinamik rəqabət ortamında və sürətlə dəyişən şərtlərdə qurumun hədəflərinə çatması çox çətindir. Qurumun fəaliyyətində rol alan, iş kollektivini inandıran və motivə edən, onlarla mütəmadi ünsiyyətdə olan və dəyişikliyə hazırlayan liderlər lazımdır.

İdarəçilik və liderlik çox vaxt bir birinə qarışdırılan, hətda bəzi vaxtlarda eyni mənada işlədilən, ümumilikdə bir birinə yaxın amma əslində bir birindən fərqli məvhumlardır. İdarəçi deyəndə ağla yuxarı dərəcəli idarəçilər gəlsə də bütün təşkilatlarda müxtəlif dərcələrdə idarəçilər var və yuxarı dərəcəli idarəçilər planlama, təşkilatlandırma, idarə etmə, irəlini düşünmə və nəzarət funksiyalarını yerinə yetirəndə bəzi hallarda bu fəaliyyətləri ikinci dərəcəli idarəçilərə həvalə etmə yoluna gedirlər. İdarəçilər sadəcə təşkilati məqsədlərin reallaşdırılması deyil, eyni zamanda təşkilatın mal və xidmət istehsalında ən vacib ünsür olan insan faktorunun daha məhsuldar, təsirli və yüksək əhval ruhiyyəli bir şəkildə işə cəlb edilə biləcəyini araşdırıb, üsul və texnikalarını inkişaf etdirərlərsə və bunu da idarəçiliklərində istifadə edə bilərlərsə istənilən istiqamətdə bir idarəçilik əldə etmiş olarlar.

Yaxşı bir idarəçi tərəfsiz, səbrli, nümunəvi, nəzakətli, qoruyucu, təşəbbüskar, xoşniyyətli, təsiredici, inandırıcı, tarazlığı saxlaya bilən, ön mühakiməsiz, sirdaş, ədalətli, güvən verici, iradəli, məsuliyyətli, qərarlı, diqqətli, səhmanlı, insana dəyər verən, paylaşımcı, həssas, dəstəkləyici, cəsarətləndirici, təqdiredici vs. olmalıdır. Ayrica müvəffəqiyyətli idarəçi qlobal idarəçilik üçün lazım olan problem həll etmə, yaradıcılıq, komanda çalışması, ünsiyyət qurma, bütün düşünmə və liderlik kimi xüsusiyyətlərini özündə inkişaf etdirən idarəçi olmalıdır.

Liderlik başqalarının fəaliyyətlərinə rəhbərlik etmək, koordinasiya etmək səhman yaratmaq və insanları yönləndirmək; şəxslərin fəaliyyətlərini dəyələndirmə və onlarda motivasiya yaratmaq; işləri bölüşdürmək və insanların götürdükləri məsuliyyətləri necə yerinə yetirə bildiklərini izləmək, problemlər qarşısında bacarıqlı həll yolları tapmaq və vəzifələrin yerinə ye-

tirilməsində uygun insanı və texniki qaynaqları təşkil etmək və ardicillarına təşkilati rəhbərlik rolunu göstərməyi bacarmalıdır.

Lider qurumun hədəflərini, öncəliklərini və standartlarını təyin edir və bunların pozulmamağı üçün lazım olan önləmləri alır, üzlaşma yoluna gedir. Liderlər əzmkarlıq, düşüncə azadlığı, ədalət duyğusu, humanistlikləri və bu kimi xüsusiyyətləri ilə digər qrup üzvlərindən fərqlənirlər. Liderlər insanların səylərini, qabiliyyətlərini və şəxsiyyətlərini aşkarlayaraq yönləndirən bir dirijora bənzədilir. Bununla birlikdə liderlər ilk öncə bir dünyagörüşünə sahib olmalı, dövrün gedişatını addım addım izləyəbilməli, dünyanın və ölkəsinin vəziyyəti ilə bağlı cəmiyyətin gedişatına ən doğru şəkildə istiqamət verə bilməlidirlər. Təsirli bir lider həm özünün həm də özünə bağlı insanların ehtiyaclarını qarşılıqlı olaraq aradan qaldırmağı bacarmalı, onların fərqli qabiliyyətlərini nə vaxt və harda işlətməli olduqlarını bilən həssas biri olmalıdır.

İdarəçi və liderlər arasındakı fərq müxtəlif araşdırmacılar tərəfindən çox fərqli şəkillərdə ifadə edilmiş və siniflədirilmişdir. Bu sinifləndirmədə ümumi xüsusiyyətlər bunlardır;

— İdarəçilik bir peşə, kariyera işidir, liderlik isə insanlara təsir etmə və hərəkətə keçirmə işidir.

— İdarəçilik özünə bağlı insanlar üzərində güc sahibi olmaq, qurumun hədəflərinə çatması üçün insanlara gördükləri işin qarşılığında bir şey verərək iş gördürmək, mərhələləri idarə etməkdir. Liderlik özünə bağlı insanlar üzərində güc sahibi olmaq deyil, onlara təsir etmək və inandırmaqla bağlıdır.

— İdarəçilər daha çox rəqəmlərlə, konkret mövzular üzərində analizlər aparan bir idarəçilik tərzi sərgiləyirlər. Liderlər isə hər zaman idarə etdiyi insanlarla öz arasında qarşılıqlı təsiri sərgiləyir.

— İdarəçilik formal bir təşkilati quruluş içində reallaşır, liderlik üçün formal bir quruluş şərt deyil.

— İdarəçinin insanlara təsir etmə vasitəsi, olduğu vəzifədə ona verilmiş olan səlahiyyət, işi gördürmə haqqıdır, liderin təsiretmədə istifadə etdiyi vasitə isə öz fərdi xüsusiyyətləri, davranışları, insanlara verdiyi baxış açısı, güvən və ilhamdır.

— İdarəçinin vəzifəsinin tərifi vardir, liderin vəzifəsinin tərifi yoxdur.

— İdarəçilik təyin olunan hədəflərə çatma, liderlik isə dəyişiklik və fərqlilik edə bilməkdir.

— İdarəçi "İşleri düzgün edən", lider isə "Düzgün işlər edən" insandır.

Hər nə qədər fərqliliklər olsa da, həm idarəçinin həm də liderin ortaq nöqtəsi insanları bir hədəfə çatmaq üçün yönləndirməkdir. Bacarıqlı bir idarəçi ola bilərsiniz və ya elə olduğunuzu düşünə bilərsiniz lakin dəyişən şəraitdə eyni bacarıqlı idarəçi profilini göstərməyə bilərsiniz. Bacarıqlı bir lider də ola bilərsiniz lakin hər şey xəyal qırıqlığı ilə nəticələnə bilər. Ancaq Lider İdarəçi olmağı bacara bilsəniz, hər şəraitdə və ən çətin şərtlərdə müvəfəqiyyət qazana bilərsiniz.

Lider idarəçilər, öz qurumunun məqsədlərini həyata keçirərkən, bunu iş görənlərin istək və səyləri ilə bütünləşdirərək edərlər. İdarəçi liderlər qurumun bütünündə planlama, inkişaf, kontrol və dəyərləndirmə mövzularında üzərlərinə məsuliyyət götürürlər. Eyni zamanda mali idarəetmə və nəzarətdə, uzun zamanlı strateji planlama, qaynaqları genişləndirməkdə və siyasi səviyyədə də məsuliyyət götürürlər.

Lider idarəçilik öyrənilə bilən, elmi və bədii çəkisi olan bir peşədir. Lider idarəçilikdə, fərdi ağıl yerinə ortaq ağıl; şəxs yerinə komanda; əmr yerinə təlimatlandırma; idarəçilik yerinə liderlik; nəticəyə hədəflənmək yerinə müddətə hədəflənmək; çox işləmək yerinə ağıllı işləmək əsasdır.

Lider idarəçi, irəlini görməyi və göstərməyi bilən; arzulanan reallığın və hədəfin sxemini göz önünə gətirə bilən; bu hədəf və məqsəd tablosunu göstərə bilən; sözü gedən görüntünün əlçatan və həyata keçiriləbilən olmasını göstərən insandır.

Və son olaraq, bacarıqlı bir Lider İdarəçi olmaq üçün nələr lazımdır:

Həvəsləndirmə bacarığı olmalıdır!

"İnsanın xəyalı ilə əldə etməyi arasında ancaq əzminin aşacağı bir məsafə var". Halil Cibran

Təvəzökar olmalı və bunu göstərə bilməlidir!

"Əmr etmədən idarə edə bilirsənsə Lidersən deməkdir".

Lao Tzu

Empatiya qurmalıdır!

"Diqqətinizi öz cavabınız yerinə onun söylədiyini anlamaq üzərində cəmləyin". John C.Maxwell

Bədən dilini pozitiv istiqamətdə istifadə etməlidir!

"Bir yaxşı davranış dünyadakı bütün sözlərdən daha təsirlidir".

Andrew Marvell

Təqdir etmədə comərd davranmalıdır!

"Başqalarının yaxşı tərəflərini görüb təqdir etmək alışqanlığı insanın ruhunu zənginləşdirir".

C.W.Hall

Tənqidə qarşı açıq olmalıdır!

"Yanıldığını əsla qəbul etməyənlər, ən çox yanılanlardır".

La Rochefoucauld

İnsanların vaxtını israf etməməli!

"Vaxt ən az tapılan qaynaqdır. Əgər o düzgün yönləndirilmirsə, hec bir şey düzgün yönləndirilmir deməkdir".

Peter Drucker

Dinləyə bilməlidir!

"Dur dinlə! Ancaq danışarsansa heç bir şey eşidə bilmərsən".

Atalar sözü

**Məqalənin aktuallığı.** İdarəolunmada aparıcı yer tutan idarəçilik və liderliklə bağlı kifayət qədər nəzəriyyə olsa da, cəmiyyətin inkişafı bu sahədə yeni forma və metodların tətbiqini tələb edir. Məqalədə də bu kimi məsələlərə toxunulduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müasir cəmiyyətdə idarəçilərlə liderləri fərqləndirən səciyyəvi xüsusiyyətlər göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat

1. Cohen, William A., Drucker ve Liderlik. İstanbul: Optimist Yayınları, 2010.
2. Efil, İsmail, İşletmelerde Yönetim ve Organizasyon. Bursa: Dora Yayınları, 2010.
3. Barutçugil, İsmet, Yöneticinin Yönetimi. İstanbul: Kariyer Yayıncılık, 2006.
4. Bernardin, J.H. & J.E. Russel, Human Resource Management: An Experiential

Approach, Irwin: McGraw-Hill, 1998.
5. Ertürk, Mümin, İşletmelerde Yönetim ve Organizasyon. İstanbul: Beta Yayınları, 2000.
6. Gerry Reffo, Valerie Wark, Liderlik ve Politik Zeka. Türkiye İş Bankası Kültür Yayınları, İstanbul 2016.
7. Peter Burwash, Liderliğin Anahtarı. Timaş Yayınları, İstanbul 1998.
8. Osman Uysal, Liderliğin Anatomisi. Akçağ Yayınları, İstanbul 2007.
9. Özhan Atalay, Yöneticinin Başarısızlık Rehberi. Ceres yayınları, İstanbul 2016.
10. Koçel, T., İşletme Yöneticiliği, Beta Basım ve Dağıtım, İstanbul, 1998.

**М.А. Аккоч**

## Управленчество или лидерство?

## Резюме

Когда менеджер начинает расширять свои управленческие обязанности в области лидерства, он становится настоящим лидером. Менеджер является ведущим, а также управляющим в обществе.

**M.A. Akkoch**

## Management or leadership?

## Summary

Where a manager begins to expand his or her management responsibility into leadership areas, then the manager becomes a leader too. The manager is leading as well as managing.

**Redaksiyaya daxil olub:** 02.12.2019